*Qaradağ rayonu*

# "Bilik günü"nün sevinc coşqusu



Respublikamızın hər yerində olduğu kimi, səbrsizliklə gözlənilən "Bilik günü" münasibəti ilə Qaradağ rayonu ərazisində yerləşən bütün təhsil ocaqlarında da təntənəli, əsl bayram coşqusu ilə tədbirlər keçirildi.

Rayon rəhbərliyinin, ictimaiyyət nümayəndələrinin yaxından iştirak etdiyi tədbirdə məktəb müəllimlərinin, şagird heyətinin, valideynlər və birincilərin sevinci hədsiz idi.

İlk öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.



Tədbirdə çıxış edən hər kəs ilk dəfə məktəbə qədəm qoyan birincilərə uğurlar diləyərək hər birinin gələcəkdə dövlətimiz, cəmiyyətimiz üçün savadlı və yararlı vətəndaş olaraq yetişmələrini arzuladılar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təhsilin inkişafına, müəllimlərə həmişə böyük diqqət və qayğı ilə yanaşdığını, bu işi dövlət siyasətinin mühüm bir sahəsi hesab etdiyi vurğulandı. Qeyd olundu ki, artıq Azərbaycan təhsil sistemi yeni inkişaf dövrünə qədəm qoyub. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr ulu öndərin təhsil siyasətinin uğurlu davamı və inkişaf meyarıdır. Ötən tədris ilinin də Qaradağ rayonu üçün uğurlu olduğu diqqətə çatdırıldı. Belə ki, ali məktəblərə qəbul imtahanlarında rayon məktəblilərindən 26 nəfəri 600-dən yuxarı bal toplayaraq yüksək nəticələr göstərib, 1 məzunu isə qızıl medala layiq görülüb.

Qeyd etmək lazımdır ki, 2011-2013-cü və 2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurlu icrası nəticəsində rayon ərazisində bir neçə təhsil ocağı əsaslı təmir olunmuş, yeni tədris korpusları inşa edilərək istifadəyə verilmişdir. Hazırda bu istiqamətdə işlər davam etdirilməkdədir.

Bundan başqa Heydər Əliyev Fondunun təşəbbüsü ilə yeni tədris ili ərəfəsində rayonun imkansız, maddi durumu ağır olan ailələrinin orta ümumtəhsil məktəblərində təhsil alacaq 200 nəfər məktəbliyə yeni məktəbli formaları, çantalar və məktəb ləvazimatları təqdim olunmuşdur.

"İlk zəng"in səslənməsi ilə yeni dərs ili başlanıldı. Bununla da rayon təhsil müəssisələri uğurlu nailiyyətlər ənənəsini yeni tədris ilində də davam etdirmək əzmi ilə səfərbər olundular.

**Mustafa KAMAL.**